THE WORLD BANK
IBRD • IDA | WORLD BANK GROUP

**NEWS RELEASE**

# Avropa və Mərkəzi Asiya: İş yerlərinə sərmayələr məhsuldarlıq və artıma təkan vermək üçün açardır

**WASHINGTON, 7 oktyabr 2025** — Avropa və Mərkəzi Asiyada (AMA) iqtisadi artım zəifləyib, lakin region qlobal və regional çağırışlara baxmayaraq dayanıqlılığını qoruyub saxlayıb. Bu barədə Dünya Bankının bu gün yayımladığı "*Avropa və Mərkəzi Asiya üzrə İqtisadi Məruzə: İş yerləri və Rifah*" adlı son hesabatında bildirilir.

Regionun ÜDM-nin bu il real ifadədə 2,4 faiz artacağı gözlənilir ki, bu da 2024-cü ildəki 3,7 faiz göstəricisindən aşağıdır. Bu azalma əsasən Rusiya Federasiyasında genişlənmə tempinin zəifləməsi ilə bağlıdır. Regionun ümumi istehsalının təxminən 40 faizini təşkil edən Rusiyanı çıxmaqla, artımın bu il və gələn il təxminən 3.3 faiz səviyyəsində sabit qalacağı gözlənilir.

"Regiondakı inkişaf etməkdə olan iqtisadiyyatlar bu dayanıqlılığı daha güclü məhsuldarlıq, istehsal və iş yerlərinə çevirmək üçün cəsarətli islahatlar həyata keçirməlidirlər," – deyə **Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Antonella Bassani** bildirib. "Ölkələr özəl sektoru gücləndirməli, təhsili yaxşılaşdırmalı və beynəlxalq, regional və daxili bağlantıraları inkişaf etdirməli, eyni zamanda daha çox özəl kapital cəlb etməlidirlər. Regionun qarşısında duran əsas çağırış iş imkanlarını artırmaq və aşağı ixtisaslı işləri keyfiyyətli məşğulluğa çevirməkdir".

Hesabatda iş yerlərinə xüsusi diqqət ayrılıb və qeyd olunur ki, infrastruktura yatırımlar, biznes mühitinin yaxşılaşdırılması və özəl kapitalın səfərbər edilməsi məhsuldarlığın artırılmasında həlledici rol oynayacaq.

Ölkələr iş yerlərinin bünövrəsinə – fiziki infrastruktur və insan kapitalına – investisiya qoymaqla başlamalıdırlar. Təhsilin, xüsusilə peşə və ali təhsilin keyfiyyətinin yaxşılaşdırılması da zəruridir. Əmək bazarında kifayət qədər təmsil olunmayan qadın və gənclərin potensialından hələ də tam istifadə olunmur.

Son onilliklər ərzində regionda əhəmiyyətli sayda iş yerləri yaradılıb, lakin iqtisadi artımın zəifləməsi, məhsuldarlığın geri qalması və islahatların zəif tempi əmək bazarındakı problemləri artırır. Son 15 ildə AMA regionunda məşğulluq 12 faiz artıb. Bu, özünü xüsusi olaraq xidmət sahəsində təzahür etdirir – bu sahə artıq iş yerlərinin yarıdan çoxunu təmin edir. Lakin hesabat göstərir ki, əksər imkanlar nisbətən aşağı ixtisaslı və məhdud gəlir potensialına malik işlərdə olub.

Demoqrafik problemlər əmək bazarının dayanıqlılığına təhdid yaradır: regionda əmək qabiliyyətli yaşda olan əhali növbəti onilliklərdə 17 milyon nəfər azalacaq və bu azalma əsasən Şərqi və Mərkəzi Avropa ilə Qərbi Balkanlarda cəmlənəcək. Mərkəzi Asiya və Türkiyədə isə işləyən yaşda olan əhali artacaq ki, bu da əmək bazarına fərqli təzyiqlər yaradacaq. Regionun potensialını məhdudlaşdıran struktur maneələrə aşağıdakı məsələlər daxildir: nadir hallarda böyüyən kiçik müəssisələrin çoxluğu, inkişaf etməmiş kredit və ventur kapitalı bazarları, zəif təhsil və təlim sistemləri, aşağı rəqabət və dövlətə məxsus müəssisələrin (SOE) biznes dinamizmini və bazar səmərəliliyini zəiflətməsi.

"Hər bir ölkə öz yanaşmasını insan kapitalı, fiziki infrastruktur, institutlar və təbii resurslar kimi aktivlərindən ən yaxşı şəkildə istifadə etməyə uyğunlaşdırmalıdır," – deyə **Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə baş iqtisadçısı İvaylo İzvorski** bildirib. "İş imkanlarının genişləndirilməsi demək olar ki, bütün işçilərə fayda verə bilər, çünki müxtəlif sahələr müxtəlif bacarıqlara ehtiyac duyur. Bu sahələrə diqqət yetirmək siyasətçilərə iş bazarındakı çağırışları həll etmək və artımı təmin etmək üçün real imkan yaradır".

**Əlaqə:**
World Bank Media Relations: +1 (202) 473 7660, press@worldbank.org
**Brüssel,** Christine Lynch, clynch1@worldbankgroup.org

Website: https://www.worldbank.org/en/region/eca/publication/europe-and-central-asia-economic-update

**News Release**
**2026/ECA/016**